NAXÇIVANSIĞORTA
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

# HÜQUQİ ŞƏXSLƏRƏ TƏQDİM EDİLƏN AVTONƏQLİYYAT VASİTƏLƏRİNİN (KASKO) SIĞORTASI ÜZRƏ YADDAŞ VƏRƏQƏSİ

## Sığortalının mütləq bilməli olduğu məsələlər

**Hadisə baş verdikdə nə etməli?**

1. Hadisə baş verdikdə **+99436 554 3999 (055 336 66 11)** telefon nömrəsi vasitəsilə "Naxçıvansığorta" ASC və ya onun nümayəndəsinə, eyni zamanda qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə məlumat verin.
Yanğınsöndürmə xidməti (101), Polis Orqanına (102), xəsarət alan varsa "Təcili yardım" xidmətinə (103), FHN (112).
2. Zərərin qarşısının alınması və həcminin azaldılması, hadisənin nəticələrinin aradan qaldırılması yaxud digər fəsadlara səbəb olmaması, zərər çəkmiş şəxslərin həyatının xilas edilməsi üçün ağlabatan və mümkün olan bütün tədbirləri görün.
3. Zərər dəymiş avtomobili sığorta şirkətinin nümayəndəsi ona baxış keçirənədək hadisədən dərhal sonrakı vəziyyətdə saxlayın (təmir və ya bərpa etməyin).
4. Zərər dəymiş avtomobilə baxış keçirilməsi üçün sığorta şirkətinin nümayəndəsinə şərait yaradın və hadisənin səbəbinin və ya vurulmuş zərərin həcminin müəyyənləşdirilməsi üçün tələb olunan məlumat və sənədləri onlara verin.
5. Aşağıdakı hallarda zərər dəymiş avtomobilin hadisədən dərhal sonrakı vəziyyətdə təqdim edilməməsi mümkündür:
*- zərərin qarşısının alınması və həcminin azaldılması, hadisəsinin nəticələrinin aradan qaldırılması yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş avtomobilin sonrakı itkilərinə təhlükə ehtimalı olduğu halda onun nəzarətsiz halda qalmaması üçün zəruri tədbirlər görüldükdə, o cümlədən bu məqsədlərlə hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş avtomobilin hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;*
*- sığorta hadisəsi barədə məlumatlandırıldıqdan 5 gün müddətində sığorta şirkətinin nümayəndəsi zərər dəymiş avtomobilə baxış keçirmədikdə;*
*- digər hallarda zərər dəymiş avtomobilin hadisədən dərhal sonrakı vəziyyətdə saxlanmamasına Sığortaçının yazılı razılığı olduqda.*
6. Hadisə barədə şifahi məlumatın verildiyi vaxtdan 3 iş günü ərzində yazılı sığorta tələbinin formasını sığorta şirkətindən tələb edin və onu doldurараq dərhal sığorta şirkətinə təqdim edin.

**Hadisə barədə xəbər verildikdə aşağıda qeyd olunan məlumatlar mütləq bildirilməlidir:**

- Sığortalının (Hüquqi şəxsin) adı;
- Sürücünün adı, soyadı, atasının adı
- Sığorta müqaviləsinin (şəhadətnaməsinin) nömrəsi;
- Avtomobilin markası və modeli;
- Dövlət qeydiyyat nişanı;
- Hadisənin baş verdiyi tarix, saat və ərazi
- Zərurət olduqda digər məlumatlar.

**Sığorta ödənişinin verilməsindən imtinanın əsasları**

**Aşağıdakı hallarda sığorta ödənişi verilmir**:

1. Sığorta hadisəsi barəsində məlumatın sığortaçıya vaxtında verilməməsi nəticəsində sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı Qaydaların 19.1.4-cü maddəsinə riayət edilmədikdə;
2. Qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;
3. Müqavilə ilə hərbi risklərin sığortalanması nəzərdə tutulmayıbsa, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;
4. Sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;
5. Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən, əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;
6. Qaydaların 23.2-ci maddəsi nəzərə alınmaqla, sığorta predmeti, sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;
7. Sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənən məbləğ həcmində imtina edilir.
8. Baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
9. Sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, Qaydalarda nəzərdə tutulmuş digər halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;
10. Avtonəqliyyat vasitəsinin alkoqol, narkotik və toksik sərxoşluq vəziyyətində idarə edildikdə;
11. Sığorta qaydalarında nəzərdə tutulmuş digər hallarda.

**Ümumi İstisnalar**

**1.** Müharibə, hər cür hərbi əməliyyatlar, xarici düşmən basqını, vuruşma (müharibə elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibəsi, üsyan və bunların qarşısının alınması və yatırılması məqsədilə keçirilən inzibati və hərbi tədbirlər nəticəsində dəyən zərərlər;

**2.** Hər hansı nüvə partlayışı radiasiya və radioaktiv çirklənmələr, bununla əlaqədar keçirilən hərbi və inzibati tədbirlər nəticəsində dəyən zərərlər;

**3.** Avtonəqliyyat vasitəsinin bazar qiymətinin düşməsi;

**4.** Avtonəqliyyat vasitəsinin vəziyyətinin onun sığorta hadisəsindən əvvəlki vəziyyəti ilə müqayisədə yaxşılaşdıran hər hansı təmir və ya dəyişdirilmə;

**5.** Əldən çıxmış fayda və ya digər dolayı itkilər;

**6.** Əgər itki və ya ziyan sığortalanmış riskin nəticəsində baş verməmişdirsə, tədricən baş verən xarab olma, ayrılmaz qüsur, gizli çatışmamazlıq, hər hansı növ həşəratlardan və ziyanvericilərdən dəyən zərər, zibillənmə, çirklənmə, adi köhnəlmə, atmosferin rütubətliyi və ya quraqlığı, hərarətin və ya rütubətin dəyişkənliyi, sıx duman, deformasiya, buxarlanma, çəkinin itirilməsi, aşınma, nəm və ya quru çürümə, rəngin, quruluşun və ya pardaqlamanın dəyişməsi və ya korlanması;

**7.** Əgər itki və ya ziyan sığortalanmış riskin nəticəsində baş verməmişdirsə, donma, mexaniki, elektrik və ya elektronik nasazlıq;

**8.** Avtonəqliyyat vasitəsinin və ya ona sahibliyin könüllü verilməsi ilə bağlı, belə könüllü verilmənin dələduzluq, mənimsəmə və ya aldatma niyyətilə qəsdən fakt haqqında yalan təsəvvür yaratmanın nəticəsi olub-olmamasından asılı olmayaraq, Sığortalıya dəyən zərər;

**9.** Yazılı və ya şifahi formada olmasından asılı olmayaraq girov, şərtli satış, icarə və ya digər Sığorta şəhadətnaməsi yaxud razılaşma əsasında qanuni şəkildə girov saxlayan, alıcı, icarədar və ya avtonəqliyyat vasitəsi üzərində qanuni sahibliyi həyata keçirən digər şəxs tərəfindən saxlanılan avtonəqliyyat vasitəsinin qeyri-qanuni satışı, mənimsənilməsi və ya gizlədilməsi;

**10.** Sığortalının qəsdən etdiyi hərəkətləri;

**11.** Qanunsuz və ya qərəzli hərəkətlər vasitəsi ilə və ya hər hansı qanunsuz təşkilatın adından və ya onunla birlikdə hərəkət edən şəxslər tərəfindən törədilən aktların nəticəsində baş verən hadisələr. Bu istisnanın məqsədləri üçün:

"qanunsuz təşkilat" terrorçuluq fəaliyyəti ilə məşğul olan və Sığorta şəhadətnaməsinin ərazisində bütün vaxtlarda qanunla qadağan olunan təşkilatı özündə birləşdirən hər hansı təşkilatı bildirir;

"terrorçuluq" cəmiyyəti və ya cəmiyyətin hər hansı qrupunu qorxutmaq məqsədi ilə zor tətbiqi daxil olmaqla, siyasi məqsədlərlə zor tətbiqi deməkdir.

**12.** Məcburi, qanunsuz zəbt etmə halları istisna olmaqla, avtonəqliyyat vasitəsinin toksik, spirtli və narkotik sərxoşluq vəziyyətində olan Sürücü tərəfindən idarə edilməsi;

**13.** Avtonəqliyyat vasitəsini təlim məqsədilə, yaxud yarışlarda, sürət müsabiqələrində, sürət sınaqlarında, avtomobil rallilərində, icarə üçün, davamlılıq sınaqlarında, həmçinin avtonəqliyyat vasitələrinin istismarı və satışı ilə bağlı hər hansı məqsədlə istifadə edilməsi;

**14.** Avtonəqliyyat vasitəsi sığorta şəhadətnaməsi üzrə səlahiyyəti olmayan sürücü tərəfindən idarə edildikdə;

**15.** Həddən artıq yükləmə və ya dartma da daxil olmaqla avtonəqliyyat vasitəsinin onun texniki təyinatına uyğun gəlməyən məqsədlərlə istifadə edilməsi;

**16.** Texniki yararsızlığı Sığortalıya əvvəlcədən məlum olduğu təqdirdə belə vəziyyətdə olan avtonəqliyyat vasitəsinin istifadə edilməsi;

**17.** Avtonəqliyyat vasitəsinin hər hansı digər avtonəqliyyat vasitəsini yedəkləməsi zaman baş verən hər hansı zərər, xəsarət və ya yaranan məsuliyyət. Lakin, bu sığorta, yedəyə alan və yedəyə alınan avtonəqliyyat vasitələrinin toqquşması halları istisna olmaqla, avtonəqliyyat vəsitəsinin digər avtonəqliyyat vasitəsi tərəfindən yedəklənməsi zaman avtonəqliyyat vasitəsinə dəyən hər hansı zərərlə bağlı təminat verir.

**18.** Avtonəqliyyat vasitəsinin hər hansı qeyri-qanuni ticarət, daşıma və ya cinayət məqsədilə istifadə edilməsi;

**19.** Aşağıdakı məqsədlər üçün hər hansı avtonəqliyyat vasitəsinə sahiblik, texniki xidmət, onun istismarı və saxlanması ilə bağlı baş verən istənilən zərər, xəsarət və yaranan məsuliyyət:

a) nitroqliserin, dinamit və bunlara bənzər başqa partlayıcı maddələrin daşınması;
b) mayeləşdirilmiş neftin və ya neft məhsullarının tarasız daşınması;
c) maye, sıxılmış və ya qazabənzər formada kimyəvi maddələrin və ya qazların daşınması;
d) ictimai yollardan kənarda podratçının avadanlığı kimi istifadəsi.

**20.** Vaxtı-vaxtında səlahiyyətli dövlət orqanları tərəfindən texniki baxışdan keçməyən avtonəqliyyat vasitələri üzrə hadisə baş verdiyi zaman, hadisənin səbəbi mövcud olan texniki yararsızlıqla (nasazlıq) bağlı olduqda;

**21.** Özünə güvənərək yol hərəkəti haqqında qanunun tələblərinin sürücü tərəfindən bilərəkdən pozulması və bununla əlaqədar olaraq qarşısının alınması mümkün olmayan qəza nəticəsində yaranan itki və ya ziyan. Bu hal mütləq müvafiq ixtisaslaşmış peşəkar ekspert tərəfindən müəyyən olunmalıdır.